**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI KAFEDRASI**

**MAGİSTR TƏHSİL PİLLƏSİ ÜÇÜN**

**İXTİSAS: 060201 FİLOLOGİYA**

# AŞIQ ŞEİRİNİN POETİKASI

**PROQRAM**

**BAKI - 2016**

**Tərtib edən:** Nəbiyeva Ülkər Azad qızı – Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti, filologiya üzrə elmlər doktoru

**Redaktor:** Orucova Səhər Hidayət qızı – Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor, filologiya üzrə elmlər doktoru

**Rəyçilər:** Qasımlı Məhərrəm Paşa oğlu – AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Azərbaycan şifahi xalq ədəbiyyatı və ədəbi abidələr" şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor

Xəlilov Nizami Qasım oğlu – Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının professoru, filologiya üzrə elmlər doktoru

***© "Bakı Universiteti" nəşriyyatı, 2016***

# AŞIQ ŞEİRİNİN POETİKASI

## İZAHAT VƏRƏQİ

"Aşıq şeirinin poetikası" fənni (İF-M 2607) 060201 – Filologiya ixtisası üzrə magistratura pilləsində təhsil alan tələbələrə II kursda 45 saat (30 saat mühazirə, 15 saat məşğələ) həcmində tədris edilir. Fənnin həcmi mütəxəssis hazırlığı üzrə Dövlət Standartının tələblərinə uyğundur. Fənn üzrə tədris işinin əsas növü mühazirə və praktik auditoriya məşğələləridir. Məşğələlərin əsas forması ilə yanaşı, tələbənin auditoriyadankənar vaxtda yerinə yetirdiyi müntəzəm məcburi sərbəst işi də böyük əhəmiyyətə malikdir.

### Fənnin mənimsənilməsinin məqsəd və vəzifələri

**Kursun məqsədi** – magistrantlara poetika anlayışını izah etmək, onlara Azərbaycan aşıq şeirinin poetikası, aşıq poeziyasının poetik strukturu barədə bilgilər vermək, aşıq şeirinin poetik modelini, başlıca poetik formalarını, xalq şeirində ritm yaradan vasitələri, ümumilikdə şifahi və klassik şeirimizdə geniş yayılmış şeir şəkillərinin poetik funksiyasını elmin müasir tələblərinə uyğun şəkildə tələbələrə mənimsətməkdir.

**Kursun vəzifələri:**

1. Tələbələrdə poetika anlayışı haqqında təsəvvür yaratmaq;
2. Tələbələri poetikanın tədqiq tarixi ilə tanış etmək;
3. Sillabik (hecayi) şeir sistemi və türk şeirində sillabizm anlayışını tələbələrin diqqətinə çatdırmaq;
4. Aşıq şeir şəkillərinin - gəraylı, qoşma, təcnis və s. poetikası haqqında məlumatlandırmaq;
5. Aşıq şeir şəkillərində ritm yaradan əsas vasitələri xalq şeirinin ifadə formaları kimi təqdim etmək;

6. Aşıq şeir şəkillərinin poetik təhlilini, o cümlədən qafiyə, söz təkrarları, alliterasiya, assonans və s. kimi ritm yaradan vasitələri üzə çıxarmağı təkmilləşdirmək.

## Fənnin tədris prosesində yeri

Azərbaycan aşıq şeirinin poetik strukturunu və funksiyasını öyrənən «Aşıq şeirinin poetikası» (İF-M 2607) fənni magistratura pilləsində tədris edilən nəzəri fənlərdən biridir. Fənnin təqdim olunan proqramında tədris prosesində qarşıya qoyulan başlıca məqsəd və vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Kursun sonunda magistrantlar aşağıdakı yeni bilgilər və informasiyalar əldə edəcəklər:

a) poetika istilahının etimologiyası, sahələri və əhəmiyyəti barədə bilgilər;

b) poetika sahəsində aparılan tədqiqatlar haqqında məlumatlar;

c) Azərbaycan xalq şeirinin başlıca qaynaqları və inkişaf mərhələləri ilə tanışlıq;

ç) ozan -aşıq sənətinin səciyyəvi xüsusiyyətləri və transformasiyası barədə təfərrüatlar;

d) aşıq şeir şəkillərinin poetik strukturunun özəllikləri;

e) aşıq şeir şəkillərində ritm yaradan vasitələrin poetik funksiyasına dair informasiyalar.

«Aşıq şeirinin poetikası» fənninin təqdim olunmuş proqramında tələbələrin əvvəllər qazandığı bilgi və informasiyalar əsasında fənlərarası əlaqələrin daha da genişlənməsinə riayət olunmuşdur. Bakalavr təhsil pilləsində magistrantların «Ədəbiyyat nəzəriyyəsi» və «Azərbaycan şifahi xalq ədəbiyyatı» fənlərinin tədrisi prosesində əldə etdikləri elmi-nəzəri biliklərin yeni fənn vasitəsilə daha da təkmilləşdirilməsi qarşıya qoyulmuşdur.

**Fənnin mənimsənilməsi nəticəsində tələbə bilməlidir:**

- poetikanın ədəbi əsərlərin ifadə vasitələrini öyrənən elm olduğunu;
- poetikanın tədqiq tarixini;
- xalq şeirinin inkişaf mərhələlərini;
- sillabik şeirin səciyyəvi xüsusiyyətlərini;
- şifahi xalq şeirində qafiyə, alliterasiya, assonans, söz təkrarları və s. müəyyən etməyi;
- aşıq şeir şəkillərinin – gəraylı, qoşma, təcnis, müxəmməs, deyişmə, divani və təsnifin poetik quruluşunun səciyyəvi xüsusiyyətlərini.

**Bacarmalıdır:**

- aşıq şeirində əsas poetik forma və şəkillərin təhlilini aparmağı;
- xalq şeirində ritm yaradan vasitələrin - qafiyə, durğu, söz təkrarları və s. funksiyasını müəyyənləşdirməyi;
- bədii təsvir və ifadə vasitələrini təhlil etməyi;
- gəraylı, qoşma, təcnis, deyişmə və digər aşıq şeir şəkillərinin poetik özəlliklərini və növlərini müəyyən etməyi.

**Yiyələnməlidir:**

- aşıq şeir şəkillərini- gəraylı, qoşma, təcnis, müxəmməs və s. nümunələri əzbər demək və onları poetik strukturuna görə təhlil etmək qabiliyyətinə;
- xalq şerində ritm yaradan vasitələrin – qafiyə, alliterasiya, assonans və s.-nin poetik funksiyasını müəyyən etmək bacarığına.

## Mövzular üzrə saatların bölgüsü

| № | Mövzular | Cəmi | o cümlədən | |
|---|---|---|---|---|
| | | | mühazirə | seminar |
| 1. | Poetika nəzəri bir elm kimi | 4 | 2 | 2 |
| 2. | Poetikanın tədqiq tarixindən | 2 | 2 | - |
| 3. | Azərbaycan xalq şeirinin qaynaqları və inkişaf mərhələləri | 4 | 2 | 2 |
| 4. | Sillabik (hecayi) şeir sistemi. Türk şeirində sillabizm | 2 | 2 | - |
| 5. | Aşıq poeziyası. Aşıq şeirinin poetik forma və şəkilləri | 4 | 2 | 2 |
| 6. | Azərbaycan şifahi xalq şeirində paralellizm | 2 | 2 | - |
| 7. | Azərbaycan şifahi xalq şeirində ritm yaradan vasitələr. Qafiyə, onun təşəkkülü. Aşıq poeziyasında qafiyənin poetik funksiyası | 4 | 2 | 2 |
| 8. | Söz təkrarları. Onların üslubi – poetik funksiyası | 2 | 2 | - |
| 9. | Aşıq şeirində durğu, alliterasiya, assonans, vurğu və intonasiya | 4 | 2 | 2 |
| 10. | Aşıq şeirində gəraylı, poetik strukturu və növləri | 2 | 2 | - |

| | | | | |
|---|---|---|---|---|
| 11. | Aşıq şeirində qoşma, poetik özəllikləri və şəkilləri | 4 | 2 | 2 |
| 12. | Təcnis, poetik strukturu, şəkilləri | 2 | 2 | - |
| 13. | Aşıq şeirində deyişmə | 4 | 2 | 2 |
| 14. | Aşıq poeziyasında müxəmməs, poetik strukturu | 2 | 2 | - |
| 15. | Aşıq poeziyasında divani və təsnif | 3 | 2 | 1 |
| **Cəmi:** | | 45 | 30 | 15 |

## Mövzuların qısa məzmunu

### 1. Poetika nəzəri bir elm kimi

Poetika anlayışının etimologiyası. Poetika ədəbiyyatşünaslıqda ədəbi əsərlərin ifadə vasitələri sistemini öyrənən elm kimi. Poetika ədəbiyyatşünaslıq elminin qədim fənlərindən biri kimi. Poetika ədəbiyyat nəzəriyyəsinin bir sahəsi kimi. Tədqiqat obyektinin araşdırılma aspektindən asılı olaraq poetikaya müraciət.

Ədəbiyyatşünaslıqda poetikanın əhəmiyyəti.

Ədəbi əsərdən alınan təəssüratın formalaşmasında iştirak edən müxtəlif ünsürlərin təqdim edilməsində poetikanın rolu.

Poetika dilin bədii imkanlarından istifadəsi haqqında elm kimi. Poetikanın sahələri. Onların mahiyyəti, predmeti və məqsədi.

Ümumi poetika haqqında məlumat.

Xüsusi poetika ayrı- ayrı əsrlərdə ifadə vasitələrinin qarşılıqlı əlaqəsini öyrənən bir sahə kimi.

Tarixi poetika ayrı-ayrı kateqoriyaların inkişafını öyrənən elm sahəsi kimi.

Folklor poetikası tarixi poetikanın predmeti və materialı kimi.

Poetika normativ qaydalar sistemi kimi.

XIX yüzillikdən etibarən poetikanın obyektiv təsviri elm kimi inkişafı. Müasir dövrdə poetikanın inkişafı [7], [8], [10], [11], [59], [60], [61], [64], [65].

## 2. Poetikanın tədqiq tarixindən

Qədim yunan filosofu Aristotel (e.ə.384- e.ə.322) poetikanın əsasını qoymuş sənət xadimi kimi. Aristotelin bədii yaradıcılıq məsələlərindən bəhs edən «Poetika» əsəri. Aristotelin poetika anlayışını poeziya misralarında işlətməsi haqqında məlumat.

«Poetika» əsərində katarsis nəzəriyyəsi. Həmin nəzəriyyənin yaranması və mahiyyəti.

«Poetika» əsərində mimesis nəzəriyyəsi. Aristotelin bu nəzəriyyəsində öz sələfləri Sokrat, Platon və digər filosofların irəli sürdüyü bir nəzəriyyədən fərqli olaraq gerçəkliyin yaradıcı təcəssümü ilə bağlı fikirləri.

Aristotelin təqlidi insanın təbii bir xüsusiyyəti kimi dəyərləndirməsi. Bu fikrin Platonun, N.Q.Çernışevskinin, fransız klassiki Bualonun əsərlərində davam etdirilməsi.

Horasiy (e.ə. 65-68) Aristotelin poetika sahəsində sələfi kimi. Onun poetikanın Avropa poetikası tarixində xüsusi əhəmiyyəti olan özünəməxsus tipinin əks olunması barədə mülahizəsi.

Lessinq, Herder, Şlegel, Şellinq, Hegelin, Humboltun və başqalarının poetika sahəsində xidmətləri.

A.A.Potebnyanın poetikanın linqvistik əsasları haqqında məktəb yaratması.

A.N.Veselovski tarixi poetikanın tədqiqatçısı kimi. U.N. Tınyanov, M.M.Baxtin və B.Y.Propp bu sahədə A.N. Veselov-skinin davamçıları kimi. A.N.Veselovskinin poetik dilin, üslubun, ədəbi süjetlərin araşdırılmasına diqqət yetirməsi, ədəbi növlərin tarixi, növbələşməsi prinsiplərini tədqiq etməsi.

Azərbaycanda poetika sahəsində aparılan tədqiqatlar. F.Köçərli, İ.Hikmət, Ə.Abid, H.Zeynallı, M.Cəfər, Ə.Nazim, M.Ələkbərli, Ə.Dəmirçizadə, A.Nəbiyev, K.Abdulla, Q.Paşayev, B.Abdulla, N.Cəfərov, M.Qasımlı, K.Hüseynoğlu, Ş.Alışanlı, M.İracoğlu, S.Rzasoy və başqaları tərəfindən poetikanın müxtəlif aspektlərdə araşdırılması [7], [8], [10], [11], [19], [20], [21], [23], [26], [27], [29], [41], [62].

## 3. Azərbaycan xalq şeirinin qaynaqları və inkişaf mərhələləri

Poeziya söz sənətinin xüsusi bir forması kimi. Şeir sənətinin mənşəyi. Orxon-Yenisey kitabələrinin (VI-VIII əsrlər) ən qədim türk yazılı abidələri kimi tədqiqi.

VIII-IX əsrlərdə qədim uyğurlar tərəfindən yazılmış Mani himnlərinin türk poeziyasının ən qədim nümunələri kimi tədqiqi. F.E.Korş, M.İ.Boqdanova, S.E.Malov, A.N.Bernştam, L.R. Kızlasov, İ.V.Stebleva və başqalarının türk şeiri barədə mülahizələri. İlk yazılı nümunələrdə alliterasiyalı şeir sistemi.

Folklorda söz sənətinin iki qolu - mahnı və təhkiyə, rəqs, musiqi və poeziyanın sinkretik sənət növü kimi yaranmasında xalq mərasimlərinin, ayinlərin rolu. Mahnı və təhkiyə formalarının A.N.Veselovski tərəfindən tədqiqi. İbtidai dövrlərdə süni şəkildə yaradılan və adi danışıq dilinə əsaslanan nitq üsulu barədə fikirlər. Süni nitqdən ibtidai dövrlərdə ayin və mərasimlərin icrası zamanı istifadə edilməsi.

Türk xalq şeirinin növləri. Onların səciyyəvi xüsusiyyətləri.

Qədim türk folklorunda təhkiyə forması. «Kitabi-Dədə Qorqud» nəsri. «Dədə Qorqud» şeirləri üçün səciyyəvi poetik amillər [1], [4], [21], [23], [25], [26], [30], [31], [43].

## 4. Sillabik (hecayi) şeir sistemi. Türk şeirində sillabizm

Şeir sisteminin formaları.

Alliterasiyalı şeir sistemindən qafiyəli heca şeirinə keçid prosesi. Mahmud Kaşğarinin «Divanü-lüğət-it-türk» əsəri.

Sillabik (hecayi) şeirin əsas xüsusiyyətləri. Şeirdə heca bərabərliyi ənənəsi. Türk şeirində hecanın inkişaf mərhələləri. 1920-1930-cu illərdə heca vəzni ilə bağlı aparılan tədqiqatlar. Bu sahədə Ə.Abidin, İ.Hikmətin, H.Zeynallının, M.Quliyevin, M. Rəfilinin, M.Rzaquluzadənin və başqalarının xidmətləri.

Əmək nəğmələrinin poetik strukturu. Holavar, sayaçı sözləri, sağın nəğmələri, ayrı-ayrı peşə və məşğuliyyətlərlə bağlı yaranan nəğmələrin (ovçu, balıqçı, ipəkçi və s.) poetik quruluşu. Kompozisiya və ritm ölçüləri. Mövsüm və məişət mərasim nəğmələrinin poetik strukturu.

Azərbaycan folklorunda bayatı janrı. Bayatı istilahının mənşəyi. Bayatıların səciyyəvi xüsusiyyətləri, qafiyə sistemi, poetik strukturu. Sarı Aşıq bayatı ustası kimi. Bayatıların tədqiqi və nəşri. Polyak alimi T.Kovalski, F.Köprülü və başqalarının araşdırmaları. Xoyratlar İraq-Türkman folklorunun kamil janrlarından biri kimi. Xoyrat sözünün etimologiyası. Xoyratların başlıca xüsusiyyətləri, poetik sistemi. Bayatılarla xoyratlar arasındakı oxşar və fərqli cəhətlər. Bu sahədə aparılan tədqiqatlar.

Mahnılar, onların kompozisiya quruluşu, ritm və musiqi xüsusiyyətləri [1], [2], [16], [17], [18], [19], [20], [21], [22], [25], [26], [37], [44 ], [46], [48].

## 5. Aşıq poeziyası. Aşıq şeirinin poetik forma və şəkilləri

Ozan-aşıq istilahlarının etimologiyası. Ozan – aşıq sənətinin transformasiyası. Ozan-qopuz ənənəsi. Folklorşünaslıqda «dədə», «varsaq», «yanşaq» və s. haqqında mülahizələr. Dədə Qorqud ozan və ilk oğuznamənin yaradıcısı kimi.

Aşıq sənətinin meydana gəlməsi. Aşıq sənətinin genetik qaynaqları. Aşıq sənəti sinkretik sənət növü kimi. Aşıq sənətində improvizasiya.

"Aşıq" və "Haqq aşığı" titulları. Aşıq sənətində təsəvvüf. Aşıq sənətində mərasimlərin yeri. «Ustad-şagird» ənənəsi. Folklorşünaslıqda "məktəb" və "mühit" anlayışları barədə mülahizələr. Aşıq məktəblərinin yaranması və inkişaf mərhələləri. Anadolu aşıq məktəbi. Təbriz aşıq məktəbi. Şirvan aşıq məktəbi. Göyçə aşıq məktəbi.

Aşıq poeziyasının toplanması, nəşri və tədqiqi. Bu sahədə aparılan tədqiqatlar. H.Araslının, M.Həkimovun, S.Paşayevin, A.Nəbiyevin, M.Qasımlının, H.İsmayılovun, Q.Namazovun, E.Məmmədlinin, M.Allahmanlının, N.Xəlilovun və b. araşdırmaları.

Aşıq şeirini yazılı ədəbiyyatla yaxınlaşdıran cəhətlər. Aşıq şeirinin forma və şəkilləri. Xalq şeiri şəkillərinin birləşməsindən əmələ gələn şeir formaları. Klassik poeziyadan aşıq şeirinə gələn formalar. Klassik şeir formalarının birləşməsindən əmələ gələn şəkillər. Klassik və şifahi poeziyanın birləşməsindən yaranan şəkillər, onların poetik xüsusiyyətləri.

Şeirdə bənd quruluşunun əsas prinsipləri. Misra poetik formanı yaradan element kimi. Şeirdə misranın ritmik vahid kimi rolu. Misranın strukturunun nitqin sintaktik normalarına tabe olması haqqında məlumat [6], [9], [16], [17], [21], [24], [25], [26], [28], [29], [32], [34], [35], [36], [38], [39], [40], [42], [44], [46].

## 6. Azərbaycan şifahi xalq şeirində paralellizm

Türkdilli xalqların şeir sənətinin təşəkkül və inkişafında paralellizm hadisəsi. Orxon-Yenisey və uyğur mətnlərində, eləcə də dünya xalqlarının şeir mədəniyyətinin sintaktik (psixoloji) paralellər əsasında yaranması fikri. Bu barədə S.Y.Malovun "Qədim türk yazılı abidələri" əsəri. V.M. Jirmunskinin sintaktik

paralellər barədə mülahizələri. Azərbaycanda həmin problemlə bağlı aparılmış tədqiqatlar.

Təbiət qüvvələrinin insanın ekspressiv duyğuları ilə əlaqələndirilməsində paralellizmin rolu. Sintaktik paralellizm ənənəsinin xalq şeirində əksi. Bayatı, vəsfi-hal, ağı və s. folklor nümunələrində sintaktik paralellizm ənənəsi. Bu barədə aparılan tədqiqatlar. Paralellizm hadisəsinin V.V.Radlov, A.N.Veselovski, T.Y.Kovalski, V.M.Jirmunski, A.M. Şerbak və başqa türkoloqlar tərəfindən tədqiqi. Paralellizmi meydana gətirən zərurət. Sintaktik (psixoloji) paralellər qədim türk şeirinin əsas poetik üslubu kimi. Paralellizmin şeirin inkişafında rolu. Sintaktik paralellizm şeirin vəzn, ritm və poetik forma daşıyıcısı kimi. Paralellizmin qədim türk şeirinin əsas komponentlərini – alliterasiya, rədif və qafiyəni meydana çıxaran faktor kimi çıxış etməsi fikri.

«Kitabi-Dədə Qorqud» dastanı sintaktik paralellizm hadisəsini əks etdirən mənbə kimi. Aşıq şeirində sintaktik paralelizm [3], [4], [15], [17], [22], [26], [62].

## 7. Azərbaycan şifahi xalq şeirində ritm yaradan vasitələr. Qafiyə, onun təşəkkülü. Aşıq poeziyasında qafiyənin poetik funksiyası

Azərbaycan xalq şeirində ritmik vasitələr. Qafiyə sözünün mənşəyi. Türkdilli xalqların şeirində qafiyə. Qafiyənin təşəkkülü və inkişaf mərhələləri. İ.V. Steblevanın, T.Y.Kovalskinin, V.M.Jirmunskinin, H.T.Zarifovun və başqalarının bu barədə tədqiqatları.

Qafiyənin səciyyəvi xüsusiyyətləri. Qafiyə şeirin kompozisiyasında əsas funksiya daşıyıcısı kimi. Qafiyə poetik nitqdə fikrin qüvvələnməsinə xidmət edən ritmik vasitə kimi.

Azərbaycan şifahi xalq şeirində qafiyənin rolu. Şeirdə qafiyənin ritm və intonasiya sistemində səs uyğunluğu funksiyasına dair bilgilər. Türk eposlarında qafiyənin poetik özünəməxsusluğu. Sözlərdə səsləşmədən asılı olaraq qafiyənin növləri. Bu barədə məlumat.

Aşıq şeirində qafyə.

Qafiyənin tədqiqi və araşdırılması [16], [17], [21], [22], [25], [26], [27], [28], [34].

## 8. Söz təkrarları. Onların üslubi – poetik funksiyası

Söz təkrarları dünya xalqlarının poeziyası üçün səciyyəvi hal kimi. Söz təkrarlarının «Avesta»da inikası. Söz təkrarları təkcə üslubi-sintaktik yox, həm də formal- poetik və texniki vasitələr kimi. Arxaik türk şeirində təkrarların söz və ifadələrin qafiyələnməsinin ekvivalenti kimi çıxış etməsi. Orxon-Yenisey abidələrində təkrarlar.

«Kitabi-Dədə Qorqud» eposunda təkrarların poetik funksiyası.

Təkrarlar epik şeirdə ritmik- sintaktik paralelləri üzə çıxaran vahidlər kimi. Təkrarların mürəkkəb kombinasiyaları. Təkrarların növləri.

Paronim haqqında məlumat. Misrada eyni sözün təkrarı və ya qoşa işlənməsi. Rədif poetik vasitə kimi. F.Köprülünün rədiflə bağlı mülahizələri. Təkrarların mövcudluğu barədə V.Radlovun, T.Kovalskinin, V. Jirmunskinin, A.Şerbakın, Ə.Dəmirçizadənin, K.Vəliyevin, K.Abdullanın, E.Əlibəyzadənin, M.Adilovun və b. fikirləri.

Aşıq şeiri şəkillərində təkrarların yeri.

Aşıq Abbas Tufarqanlının yaradıcılığında təkrarlar.

Molla Cümə və b. yaradıcılığında söz təkrarlarının poetik üslubunun ənənəvi davamı.

Klassik şeirdə olan rədiflərlə türk şeirindəki təkrarlar arasındakı əlaqə [3], [4], [15], [16], [26], [39], [42].

## 9. Aşıq şeirində durğu, alliterasiya, assonans, vurğu və intonasiya

Durğunun yaranması və səciyyəsi. Durğu şeirin ritmikliyinin əsasını qoyan poetik vasitə kimi. Durğu hecaların, ahəng

və melodiya əlamətlərini saxlayan poetik vahid kimi. Durğuların miqdarı və xüsusiyyətlərinin şeirin ölçüsünə təsiri.

Ritmik və qrammatik fasilə. Durğunun ritmik fasiləni müəyyən etməsinə dair məlumat. Durğunun müxtəlif bölgülü misraların bir-birini təqib etməsində mühüm rolu. Poetikada ipostasa hadisəsi. Xalq şeirinin musiqi əsərinə çevrilməsi haqqında məlumat.

Türkdilli xalqların şeirində durğu növləri. Azərbaycan xalq şeirində durğu. Bu barədə aparılan tədqiqatlar.

Alliterasiya hadisəsinin mənşəyi. Alliterasiyanın dilin lüğət tərkibini təşkil edən sözlərin fonetik təbiətindən asılı olaraq yaranmasına dair məlumat. Alliterasiyanın səciyyəvi xüsusiyyətləri. Alliterasiyanın başlıca rolu. Alliterasiya paralellizm və ahəng qanununun məhsulu kimi. Alliterasiyanın işlənmə səviyyəsi.

«Kitabi-Dədə Qorqud» dastanında alliterasiya. Aşıq şeiri şəkillərində alliterasiya hadisəsi.

Assonans hadisəsinin ahəng qanunu fəaliyyət göstərən dillərdə mövcudluğu. Söz tərkibində eyni saitlərin bir-birini izləməsi prosesi. Assonans hadisəsi şeirdə musiqilik, ahəngdarlıq yaradan vasitə kimi. Assonans hadisəsinin iki əsas cəhəti. Bu barədə məlumat. Misradakı sözlərin assonans hadisəsi ilə əlaqəsi.

Bayatılarda assonans hadisəsinin əksi.

Aşıq şeirində assonans hadisəsi.

Vurğunun əsas səciyyəsi. Vurğunun yaranma prinsipi. Ritmin yaranmasında vurğunun rolu.

Azərbaycan şifahi xalq şeirində musiqili vurğu. Xalq şeirində musiqili vurğunun işlənməsi prinsipi. Vurğunun yerdəyişməsi nəticəsində baş verən dəyişikliklikliklər . Qoşma, gəraylı, təcnis və b. şeir şəkillərində vurğu.

İntonasiya. Xalq şeirində intonasiyanın rolu. Ədəbi tələffüzdə intonasiyanın əhəmiyyəti. İntonasiya kompleks dil hadisəsi kimi.

Aşıq şeir şəkillərində intonasiyanın spesifikası.

Bu sahədə aparılan tədqiqatlar [15], [16], [17], [18], [26], [27], [43], [44].

## 10. Aşıq şeirində gəraylı, poetik strukturu və növləri

Aşıq şeir şəkillərinin saz havalarına uyğunlaşdırılaraq yaradılması haqqında məlumat. Folklorşünaslıqda aşıq şeir şəkillərinin mövcud sayı barədə mülahizələr.

Yeddilik şeir şəklinin yaranmasından sonra yeni aşıq şeir şəkillərinin meydana gəlməsi. Bu barədə aparılan tədqiqatlar. F.Qasımzadənin, Ə.Mirəhmədovun, M.İbrahimovun, M.Kərimovun, V.Vəliyevin, Q.Vəkilovun A.Nəbiyevin, M.Allahmanlının, N.Xəlilovun və başqalarının xidmətləri.

Bəzi şeir şəkillərinin ilk dəfə xalq poeziyasında, yaxud yazılı ədəbiyyatda yaranması barədə ziddiyyətli fikirlər.

Gəraylı sözünün etimologiyası. Folklorşünaslıqda bu barədə müxtəlif mülahizələr.

Gəraylının qəzəl janrının daxili qafiyəli nümunəsindən yaranması və qəzəl janrının gəraylının təsirilə meydana gəlməsi haqqında mülahizələr. M.Füzulinin məşhur bir qəzəlinin gəraylının təsiri ilə yaranması fikri. Daxili qafiyəli qəzəlin gəraylıya çevrilməsi barədə mülahizələr.

Gəraylının poetik strukturu və səciyyəvi xüsusiyyətləri. Onun qafiyə sistemi. Gəraylının başlıca tipləri. Bu tiplərin poetik quruluşu və xüsusiyyətləri. Onların yaranma yolları.

XIII –XIV əsrlərdə yaşamış Molla Qasımın poeziyasında yaranan ilk gəraylı nümunəsi. Qurbaninin, Xəstə Qasımın, Aşıq Valehin və b. yaradıcılığında gəraylı.

Klassik aşıq poeziyasında Molla Cümənin yaradıcılığında «Sallama gəraylı» şəkli.

Mikayıl Azaflının, Hüseyn Cavanın və b. yaradıcılığında gəraylı şeir şəkli [6], [12], [16], [17], [22], [24], [26], [34], [35], [38], [39], [40], [42], [44].

## 11. Aşıq şeirində qoşma, poetik özəllikləri və şəkilləri

Qoşmanın aşıq poeziyasında meydana gəlməsi.

Folklorşünaslıqda qoşma sözünün mənşəyi ilə bağlı yaranan fikirlər. Onun özünəməxsus poetik strukturu.

Qoşmanın tipləri. Qafiyə sistemi. Qoşmanın növləri.

Ustadnamələrin məzmun özəlliyi.

Ustadnamələrin mili-mənəvi dəyərlərimizin qorunub saxlanmasında rolu.

Məhəbbət dastanlarının əvvəlində işlənən ustadnamələrin aşıq yaradıcılığında müstəqil qoşmalar kimi yayılması.

Vücudnamə. Vücudnamənin poetik modeli. Vücudnamənin məzmun xüsusiyyətləri.

Xaltanlı Tağının və b. yaradıcılığında vücudnamə nümunələri.

Cahannamə. Cahannamənin əsas səciyyəsi. Cahannamənin məzmununu təşkil edən mövzu və ideyalar.

Aşıq Ələsgərin, Molla Cümənin, Xaltanlı Tağının və b. yaradıcılığında cahannaməyə müraciət.

Aşıq poeziyasında qoşmanın tipləri. Onların xüsusiyyətləri. Qoşmanın tiplərinin yaranma yolları. Aşıq şeirində qoşma tiplərinin yayılması.

Yazılı ədəbiyyatda qoşmadan istifadə.

Qoşma haqqında aparılan tədqiqatlar [12 ], [16], [17], [21], [22], [25], [26], [35], [40], [42], [44], [55].

## 12. Aşıq poeziyasında təcnis, poetik strukturu, şəkilləri

Azərbaycan ədəbiyyatşünaslığında «təcnis» termini. Təcnis sözünün mənşəyi. Müxtəlif dövrlərdə cinas qafiyəli şeir yaratmaq ənənəsi. Şərq ədəbiyyatında cinasların poetik üslubundan bəhs edən əsərlər. Təcnisin poetik özəlliklərini ehtiva edən Abdullah İbn-Əl-Mutəzin (861-900) «Kitabül-bədii» əsəri haqqında məlumat.

Təcnisin poetik quruluşu və xüsusiyyətləri. Aşıq şeirində sözün poetik imkanlarından istifadə məharəti. Təcnisin yaranma yolları.Təcnis cinas qafiyələr əsasında meydana gələn şeir şəkli kimi. Təcnisin şəkilləri.

Təcnisin növləri haqqında müxtəlif mülahizələr. Bu barədə aparılan tədqiqatlar. Türk xalqlarının poeziyasında təcnis yaratmaq ənənəsi. Fransız ədəbiyyatında təcnisin süni şəkildə yaradılması məsələsinə Bualonun münasibəti. Yapon ədəbiyyatında və poeziyasında cinaslardan istifadə olunması barədə tədqiqatlar.

Azərbaycan filoloji fikrində təcnis şeir şəkli ilə bağlı Ə.Abidin nəzəri mülahizələri. Bayatılarda cinas qafiyələr. Kərkük bayatılarında - xoyratlarda cinaslar. H.Zeynallının təcnis şeiri barədə mülahizələri. Ə.Dəmirçizadə, O. Sarıvəlli, H.Araslı və başqalarının bu barədə fikirləri. Aşıq yaradıcılığının tədqiqatçıları M.Həkimovun, V.Vəliyevin, Q.Vəkilovun, M.Əliyevin, Ə.Cəfərzadənin, E.Məmmədlinin və b. təcnislə bağlı araşdırmaları.

E.Məmmədlinin aşıq poeziyası üçün xarakterik olan cinas növləri haqqında fikri və onun təsnifatı. Həmin cinas növlərinin xarakterik cəhətləri. Cinasların tərkibi.

Molla Qasımın və Yunis İmrənin yaradıcılığında təcnisin müstəqil şeir şəkli kimi əksi. Qurbaninin, Abbas Tufarqanlının, Sarı Aşığın, Xəstə Qasımın, Aşıq Alının, Aşıq Ələsgərin, Molla Cümənin və b. yaradıcılığında təcnisdən istifadə [16], [17], [19], [25], [26], [33], [34], [35], [38], [39], [40], [42], [44], [47], [50], [51], [52], [53], [54], [55], [56], [57], [58].

## 13. Aşıq şeirində deyişmə

Azərbaycan xalq şeirində deyişmənin yaranması. Həm şifahi, həm də yazılı ədəbiyyatda deyişmə. Onlar arasında forma və məzmun baxımından əlaqə. Deyişmənin poetik quruluşu və əsas səciyyəsi. Deyişmədə iki şəxsin qarşı-qarşıya dayanıb şeirləşməsi prosesi. Deyişmədə mücərrəd məfhumlardan istifadə.

Deyişmənin formaları.

Daxili deyişmənin başlıca xüsusiyyətləri. Bu formaya məhəbbət dastanlarında müraciət.

Aşıq sənəti tarixində qəhrəmanları tərifləmək ənənəsi. Həmin ənənənin qəhrəmanların qələbəyə inam hissinin artmasına təsiri barədə məlumat.

Deyişmənin mərhələləri. Hər bir mərhələ barədə məlumat. Bu mərhələlərin deyişmənin inkişaf tarixində rolu.

Deyişmənin mərhələlərinin dastanlarda təsviri.

«Kitabi-Dədə Qorqud» dastanında deyişmənin ilk nümunəsi. Aşıq poeziyasında deyişmənin müxtəlif örnəkləri. Molla Qasımın, Molla Cümənin və b. yaradıcılığında deyişmə [4], [12], [13], [15], [16], [17], [21], [25], [26], [27], [34], [35], [38], [40], [42], [44], [53], [54].

## 14. Aşıq poeziyasında müxəmməs, poetik strukturu

Müxəmməs şeir şəklinin mənşəyi. Şəklin poetik quruluşu və qafiyə sistemi. Folklorşünaslıqda müxəmməsin meydana gəlməsi barədə mülahizələr. Müxəmməsin ictimai motivləri əks etdirmək imkanına malik olması fikri. Müxəmməsin klassik poeziyadan folklora keçməsi məsələsi.

Müxəmməsin aşıq şeirində yayılmış şəkilləri. Mərasim nəğmələrində cığaların ilk nümunəsi. Müxəmməsdə cığalar. Müxəmməsin məzmunu tərifdən ibarət olduqda cığadan istifadə. Cığanin şeirin ümumi ahənginə təsiri. Müxəmməslərin dastanlarda duvaqqapma kimi iştirakı. Müxəmməsin dastanın sonunda işlənməsi xüsusiyyətinə dair bilgilər.

Aşıq poeziyasında müxəmməs şeir şəklinin yayılma dərəcəsi.

Molla Cümənin və b. müxəmməs şəklinə müraciəti.

Müxəmməsin araşdırılması barədə məlumat [16], [17], [21], [23], [25], [26], [27], [35], [38], [40], [42], [44], [58].

## 15. Aşıq poeziyasında divani və təsnif

**Divani** şeir şəklinin meydana gəlməsi. Onun poetik quruluşu və qafiyə sistemi. Divaninin tipləri. Onların səciyyəvi xüsusiyyətləri və poetik özəllikləri. Folklorşünaslıqda divani şeir şəkli barədə mülahizələr. Sənətkarların divaniyə müraciətinin başlıca səbəbləri. Divaniləri saz havaları üstündə oxumaq ənənəsi. Divanilərin məzmunu barədə məlumat. Burada olan mövzu və ideyalar haqqında məlumat..

Türkdilli xalqların poeziyasında divani şeir şəkli.

Aşıq poeziyasında divanidən istifadə. Qurbaninin və b. yaradıcılığında divani.

Aşıq Ələsgərin divaniləri.

**Təsnif.** Təsnifin meydana gəlməsi. Poetik quruluşu və qafiyə sistemi. Folklorşünaslıqda təsnif barədə mülahizələr. Onun təkərləmə ilə əlaqəli olması barədə fikirlər. Təsnifin uşaq folklorundan aşıq poeziyasına keçməsi barədə mülahizələr.

Təsniflərin əsas mövzusu. Təsniflərdə ibrətamizlik və satira.

Aşıq poeziyasında təsnif şeir şəklindən istifadə. Yunis İmrə yaradıcılığında təsnif şeir şəklinə müraciət. Molla Cümənin, Ağ Aşığın, Aşıq Alının və başqalarının yaradıcılığında təsnif şeir şəkli.

Bu barədə aparılan tədqiqatlar [16], [17], [21], [26], [27], [35], [38], [40], [42], [44], [53], [54], [58].

## Tədris texnologiyaları, təlimin interaktiv formaları

Ənənəvi tədris üsulları – mühazirə mətnləri, elmi məqalə və monoqrafiyaları əhatə edən müxtəlif ədəbiyyatdan istifadə tədris üsullarının əsasını təşkil edir. Kursun qarşısında qoyulan məqsəd və vəzifələri həyata keçirmək üçün müasir dövrün tələblərinə uyğun olaraq texniki avadanlıqlardan istifadə mütləqdir. Xüsusən, tədris prosesi zamanı nümayiş olunan slaydlar yeni texniki vasitə kimi əhəmiyyətlidir.

## Tədris resursları

Tədris prosesinin keyfiyyətini artırmaq üçün müəyyən resurslara müraciət olunması zəruridir. Buraya hər bir mövzunun tələbələrə izahı və şərhi məqsədilə istifadə olunan tədris avadanlıqlarını – diskləri, slaydların təşkili üçün lazım olan texniki vasitələri aid etmək olar.

## Sərbəst (fərdi) nümunəvi işlərin mövzuları

1. Poetika anlayışı, sahələri və əhəmiyyəti.
2. Poetikanın tədqiq tarixindən.
3. Aşıq sənətinin yaranması, nəşri və tədqiqi. Aşıq şeirinin poetik forma və şəkilləri
4. Xalq şeirində paralellizm hadisəsi.
5. Aşıq poeziyasında ritm yaradan vasitələr.
6. Söz təkrarları.
7. Aşıq şeirində durğu, alliterasiya, assonans və s.
8. Aşıq şeirində gəraylı, poetik strukturu.
9. Aşıq poeziyasında qoşma.
10. Aşıq poeziyasında deyişmə və müxəmməs.

## Ədəbiyyat:

**Əsas:**


1. Abid Ə. Heca vəzninin tarixi (ərəb qrafikasından çevirən və çapa hazırlayan K.Hüseynoğludur). «Maarif işçisi» jurnalı, 1927, №3, s.50-54; №4, s.58-61
2. Abid Ə. Türk xalqları ədəbiyyatında «mani» növü və Azərbaycan bayatılarının xüsusiyyəti. «Azərbaycanı öyrənmə yolu» jurnalı, 1930, №4-5, s.29-42
3. Abdulla B. «Kitabi-Dədə Qorqud»un poetikası Bakı: Elm, 1999, 224 s.
4. Abdulla B. «Kitabi-Dədə Qorqud»da nitq etiketlərinin etnomifik poetikası, Bakı: Elm, 2007, 100 s.

5. Adilov M. Azərbaycan dilində sintaktik təkrarlar. Bakı: Elm, 1979, 224 s.
6. Allahmanlı M. Aşıq yaradıcılığının inkişaf mərhələləri. Bakı: Elm və təhsil, 2011, 228 s.
7. Alışanlı Ş. Tarixi poetika və ədəbiyyatşünaslığın müasir mərhələləri\\ Azərbaycan ədəbiyyatının tarixi poetikası. 2-ci kitab,Poetik fikrin təkamülü. Bakı:Elm, 2006,s.5-18
8. Alışanlı Ş. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı . Bakı: Elm, 2011, 376 s.
9. Araslı H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. (seçilmiş əsərləri) bir cilddə. Bakı: Gənclik, 1998, 732 s.
10. Azərbaycan ədəbiyyatının tarixi poetikası. I kitab, Bakı: Elm, 1989, 426 s.
11. Azərbaycan ədəbiyyatının tarixi poetikası. II kitab, Bakı: Elm, 2006, 496 s.
12. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı: Elm, 2000, 264 s.
13. Cəfərli M. Azərbaycan dastanlarının struktur poetikası. Bakı: Nurlan, 2010, 204 s.
14. Cəlil F. Türk və skandinav eposlarının poetikası. Bakı: Mütərcim, 2013, 228 s.
15. Dəmirçizadə Ə. «Kitabi-Dədə Qorqud» dastanlarının dili. Bakı: APİ nəşriyyatı, 1999, 140 s.
16. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Elm və təhsil, 2013, 600 s.
17. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: Maarif,1978, 200 s.
18. Əskər R. Mahmud Kaşğari və onun "Divanü lüğət-it Türk" əsəri, Bakı: MBM, 2008, 432 s.
19. Hacılı A. Bayatı poetikası. Bakı: Elm, 2000, 162 s.
20. Hacıyeva M. Folklor və müasir poetik proses. Bakı: Yazıçı, 1991, 144 s.
21. Həkimov M. Azərbaycan aşıq sənəntinin poetikası, Bakı: Səda, 2004, 609 s.
22. Hüseynoğlu K. Azərbaycan şeir mədəniyyəti. Bakı: Ozan, 1996, 88 s.

23. Hüseynoğlu K. Azərbaycan xalq şeirinin qaynaqları və inkişaf yolları// Azərbaycan ədəbiyyatının tarixi poetikası. Bakı: Elm, 2006, s.19-60
24. Hüseynoğlu K. Tərcibənd və tərkibənd //Azərbaycan ədəbiyyatının tarixi poetikası. Bakı: Elm, 2006, s.390-406
25. Xəlilov N. Heca vəzni və aşıq sənətinin yaranma tarixi. Bakı: Xəzər Universiteti, 2014, 174 s.
26. İracoğlu M.Azərbaycan şeir sənəti.Bakı:Çaşıoğlu, 2000,269 s.
27. İracoğlu M. Azərbaycan xalq şeirinin şəkilləri. Bakı: Tural – Ə. Nəşriyyat – poliqrafiya mərkəzi, 2001, 184 s.
28. İsmayılov H. Aşıq yaradıcılığı, mənşəyi və inkişaf mərhələləri.Bakı: Elm, 2002, 311 s.
29. Kazımov Q.Qurbani və onun poetikası. Bakı: APİ-nin nəşri, 1996, 200 s.
30. "Kitabi-Dədə Qorqud"un ensiklopediyası II cild. Bakı: Yeni nəşrlər Evi, 2000, 507 s.
31. "Kitabi-Dədə Qorqud" (tərtib, transkripsiya, sadələş. variant və müqəddimə F.Zeynalov və S.Əlizadə). Bakı: Yazıçı, 1988, 265 s.
32. Qasımlı M. Ozan-aşıq sənəti. Bakı: Uğur, 2011, 304 s.
33. Məmmədli E. Təcnis sənətkarlığı. Bakı: Nabta – press nəşriyyatı, 1998, 150 s.
34. Mirzə A. Şirvana binə gəlləm..., Bakı: Borçalı NRM, 2004, 208 s.
35. Namazov Q. Ozan-aşıq sənətinin tarixi. Bakı: Elm və təhsil, 2013, 480 s.
36. Nəbiyev A. Azərbaycan-özbək folklor əlaqələri. Bakı: Yazıçı, 1978,133 s.
37. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı (təkrar nəşr), I kitab, Bakı: Apostroff, 2014, 592 s.
38. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı (təkrar nəşr), II kitab, Bakı: Apostroff, 2014, 660 s.
39. Nəbiyev A. Azərbaycan aşıq məktəbləri. Bakı: Nurlan, 2004, 312 s.

40. Paşayev S. Azərbaycan folkloru və aşıq yaradıcılığı. Bakı: ADU nəşriyyatı, 1989, 88 s.
41. Paşayev Q. İraq-Türkman folkloru. Bakı: Yazıçı, 1992, 210 s.
42. Pirsultanlı S. Ozan-aşıq sənətinin nəzəri məsələləri. Bakı: Ozan, 2002, 208 s.
43. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı: Yazıçı, 1993, 400 s.
44. Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985, 414 s.

**Əlavə:**

45. Aristotel. Poetika (mətn), tərcümə edən A. Aslanov. Bakı: Şərq-Qərb, 2006, 120 s.
46. Aşıqlar (Tərtib edəni S.Axundov). Bakı: Azər.SSR Mədən. Naz. Qızıl Şərq mətbəəsi, 1957, 290 s.
47. Bayatılar (Toplayanı və tərtib edəni H.Qasımov). Bakı: Azərnəşr, 1960, 253 s.
48. Azərbaycan folkloru antologiyası. (Toplayan və tərtib edən Ə.Axundov) Bakı: Çıraq, 2015, 614 s.
49. Kərkük folkloru antologiyası (Toplayanı, tərtib edəni, işləyəni və ön sözün müəllifi Q. Paşayev). Bakı: Azərnəşr, 1987, 367 s.
50. Azərbaycan folkloru antologiyası. II kitab, İraq-Türkman cildi (Tərtibçilər Q. Paşayev, Ə.Bəndəroğlu), Bakı: Ağrıdağ, 1999, 467
51. Qurbani. 55 şeir (Tərtib edən A.Dadaşzadə). Bakı: Azərnəşr, 1972, 87 s.
52. Abbas Tufarqanlı. 72 şeir (Tərtib edən A.Dadaşzadə). Bakı: Azərnəşr, 1973, 150 s.
53. Xəstə Qasım.( Tərtib edən Ə.Axundov), Bakı: Azərnəşr, 1966, 129 s.
54. Aşıq Alı. (Toplayanı H. Hüseynzadə). Bakı: Azərnəşr 1975, 127 s.
55. Aşıq Ələsgər. (Toplayıb tərtib edəni İslam Ələsgər). Bakı: Şərq -Qərb, 1999, 572 s.

56. Təcnislər. (Tərtib edəni E.Məmmədov). Bakı: Yazıçı, 1986, 149 s.
57. Salman Mümtaz. El şairləri. Bakı: Səda, 2005, 292 s.
58. Molla Cümə. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1985, 138 s.
59. Аверинцев С.С. Поэтика ранней византийской литературы. М.: Наука, 1977, 320 с.
60. Аристотель. Поетика /Пер.М.М.Позднева/, М.: Амфора, 2008, 320 с.
61. Веселовский А.Н. Историческая поэтика. Ленинград: Художественная литература, 1940, 408 с.
62. Малов С.Е. Памятники древнетюркской письменности. Тексты и исследования. М -Л.: Из-во АНССР, 1951, 451 с.
63. Мелетинский Е.М. Поэтика мифа. М.: Наука, 1976, 407 с.
64. Потебня А.А. Эстетика и поэтика. М.: Искусство, 1976, 613 с.
65. Томашевский В.Т. Теория литературы: Поэтика: Учебное пособие. М.: Аспект Пресс, 1996, 334 стр.
66. Тронский И.М. История античной литературы. М.: Высшая школа, 1983, 464 с.